**AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ**
**AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL İNSTİTUTU**

***Əlyazması hüququnda***

**BALIYEV ADİL HƏSƏN OĞLU**

# VARİSLİK ƏDƏBİYYAT TƏLİMİNİN MÜHÜM PRİNSİPLƏRİNDƏN BİRİ KİMİ

**(ümumtəhsil məktəblərinin V-XI siniflərində)**

**5801.01 – Təlim və tərbiyənin nəzəriyyəsi və metodikası**
**(Ədəbiyyatın tədrisi metodikası)**

**Pedaqogika üzrə fəlsəfə doktoru elmi dərəcəsi**
**almaq üçün təqdim edilmiş dissertasiyanın**

**AVTOREFERATI**

**BAKI- 2017**

**Dissertasiya işi Azərbaycan Respublikası Təhsil İnstitutunun Ümumi təhsilin və məktəbəqədər təhsilin kurikulumu şöbəsində yerinə yetirilmişdir**

**Elmi rəhbər:** **Şəmistan Abdu oğlu Mikayılov**
*pedaqogika üzrə elmlər doktoru, professor*

**Rəsmi opponentlər:** **Piralı Behbudalı oğlu Əliyev**
*pedaqogika üzrə elmlər doktoru, dosent, Əməkdar müəllim*

**Buludxan Əziz oğlu Xəlilov**
*filologiya üzrə elmlər doktoru, professor*

**Aparıcı müəssisə:** **Bakı Slavyan Universitetinin Azərbaycan dili və onun tədrisi kafedrası**

**Müdafiə "19" dekabr 2017-cı il tarixdə saat $14^{00}$-da Azərbaycan Dövlət Pedaqoji Universiteti nəzdindəki BFD 02.061 Dissertasiya Şurasının iclasında keçiriləcəkdir.**

**Ünvan: AZ-1000, Bakı şəhəri, Üzeyir Hacıbəyli küçəsi, 68, ADPU, əsas bina, kiçik akt zalı.**

**Dissertasiya ilə Azərbaycan Dövlət Pedaqoji Universitetinin Kitabxana-İnformasiya Mərkəzində tanış olmaq olar.**

**Avtoreferat "___" noyabr 2017-cı ildə göndərilmişdir.**

**Dissertasiya Şurasının elmi katibi:** **riyaziyyat üzrə elmlər doktoru, dos. R.Z.Hümbətəliyev**

## İŞİN ÜMUMİ SƏCİYYƏSİ

**Tədqiqatın aktuallığı**. Azərbaycan dövlət müstəqilliyini qazanıb 70 illik totalitar ideoloji sistemdən, 200 illik imperiya boyunduruğundan qurtulduqdan sonra yeni qurulmuş dövlət üçün xarakterik olan keçid dövrünün yaratdığı maddi çətinliklərə, ictimai-siyasi sistemin mürəkkəbliyinin nəticəsi olaraq görünən sosial-psixoloji gərginliyə baxmayaraq, millət sevgisinə sahib müəllimlər ordusunun qazandığı uğurlar az deyildir. Müstəqillik dövründə Azərbaycan dövlətçiliyinə, milli sərvətlərin fövqündə dayanan insanlarımızın intellektual səviyyəsinin yüksəldilməsinə, ümumbəşəri dəyərlərin, demokratik yaşayış normalarının cəmiyyətə aşılanmasına xidmət ziyalılar üçün, bütövlükdə, bir vicdan məsələsidir.

Dünyanın inkişaf etmiş ölkələrinin elmi-pedaqoji təcrübələrinə əsaslanmaqla həyata keçirilən təhsil islahatları ("Təhsil haqqında Qanun"un qəbulu, "Azərbaycan Respublikasının Təhsil Konsepsiyası ("Milli Kurikulum"), "Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası"nın işlənilib hazırlanması) təlim keyfiyyətini yüksəltmək, onun məzmunu və strukturunu yenidən qurmaq, yeni tipli, modern, cəmiyyətin tələbatı ilə səsləşən monoqrafiya, dərslik və dərs vəsaitləri hazırlamaq kimi mühüm tapşırıqları pedaqoji ictimaiyyətin qarşısında təxirəsalınmaz vəzifələr kimi müəyyənləşdirmişdir.

Dövlətin təhsil siyasətinə uyğun, şagirdlərə müstəqil tədqiqatçılıq və yaradıcılıq vərdişləri aşılayan, onların məntiqi təfəkkürünü inkişaf etdirən, kurikulum əsaslı nəzəri, praktik materialların hazırlanmasına, təhlilinə, tətbiqinə sosial-pedaqoji ehtiyac duyulmaqdadır.

Azərbaycan Respublikası Prezidentinin 2013-cü il 24 oktyabr tarixli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası"nda göstərildiyi kimi, əmək bazarında işçi səriştəsinə bağlı tələblərə, cəmiyyətin sosial-iqtisadi inkişaf dinamikasına, dünyanın aparıcı ölkələrinin təhsil sistemlərinin standartlarına uyğun gələn, fasiləsiz təhsili təmin edə bilən əsərlərin yazılmasını, həllini tapmış problemlərin məktəbə tətbiqini gecikdirmək olmaz.

Praktik bilik və vərdişlərlə zənginləşməyən, sırf nəzəri xarakter daşıyan fənyönümlü təhsil öz fundamental əhəmiyyətini itirməkdə, yerini səriştəyə əsaslanan, ictimai tələbata xidmət edən bilik və bacarıqlar sisteminə verməkdədir. Yeni təlimi nəticələrin reallaşdırılmasına xidmət edən standartlar, pedaqoji texnologiyalar, qiymətləndirmə meyarları



müəyyənləşməkdə, "Milli kurikulum"a əsaslanan təhsil sistemi yaradılmaqdadır. Təlimin humanistləşdirilməsi, humanitarlaşdırılması, informatlaşdırılması, fərdiləşdirmə və diferensiallaşdırılması prinsipləri müasir dərsin qarşısında duran vəzifələri konkretləşdirməkdədir.

Dərsin ideya-siyasi səviyyəsinin yüksəldilməsi, şagirdlərdə bilik-informasiya məkanına müstəqil daxilolma bacarığının formalaşdırılması, fəndaxili və fənlərarası inteqrasiyanın təmin olunması, stimullaşdırıcı psixoloji dəstək şəraitinin yaradılması, şəxsiyyətəyönümlülük, müasir pedaqoji texnologiyaların imkanlarından səmərəli istifadə bugünkü təlimin başlıca tələbləridir.

Müasir müəllim öz işinə daşı daş üstünə qoyub gözəl imarət ucaldan bənna, notların harmoniyasından ecazkar nəğmələr bəstələyən bəstəkar, müxtəlif rəng çalarlarından göz oxşayan sənət tablosu yaratmağı bacaran rəssam kimi baxmalı, onun dərsi dərsdən əvvəl başlamaqla dərs müddəti davam etməli və dərsdən sonra şagirdlərinin cəmiyyətdə tutduğu mövqedə yekunlaşmalıdır.

Bu gün Azərbaycan məktəblərində totalitar, qapalı sovet cəmiyyətində təhsil almış, dərs demiş yaşlı, peşəkar pedaqoqlarla bərabər, azad, demokratik dəyərlərə sahib, dünya təhsil sisteminin nailiyyətlərindən xəbərdar, yeniliyi həzm etməyi bacaran gənc mütəxəssislər də fəaliyyət göstərir. Ayrı-ayrı ideoloji dünyagörüşlərinin və fərqli təhsil sistemlərinin "məhsulu" olan bu insanları birləşdirən ana xətt müstəqil Azərbaycan Respublikasına xidmətdir.

Sivil dünyanın inkişafını tənzimləyən demokratik dəyərlər, insan haqları kimi prioritetlər milli formalaşma və kamilləşmə yolunda qarşıya çox ciddi vəzifələr qoyur. Bu vəzifələrin effektli həlli yolu müasir təlimin məzmunundan doğan tələblərə cavab verə bilən yeni metodik sistemin yaradılmasından və varəsəyə xətasız istinaddan keçir. Nəsillər, mərhələlərarası varislik müasir dünyanın ən narahatedici, aktual sosial problemlərindəndir. İctimai irsi qoruyub mühafizə etməklə gələcək nəslə çatdırmaq biliklər potensialı ilə birdəfəlik həll oluna bilən bir riyazi məsələ, bir iqtisadi çözüm deyildir. Belə demək mümkünsə, varislik, irsə yanaşma elmin, insanlığın "əbədi" problemidir.

Tədris prosesinin təsəvvür, inkişaf, tətbiq və inteqrasiya kimi metodoloji mərhələlərində keçmişdə qazanılmış bilik, bacarıq və vərdişlər kompleksinin ünsürlərinə istinad bir pedaqoji tələbatdır. Təlimdə fasiləsizlik, inteqrasiya və inkişafetdiricilik varislik əsasında təmin olunur.

Əvəzedilməz milli sərvət sayılan intellektual kapital inteqrativ, vərəsəyə söykənən biliklərin vəhdətində formalaşır və bu kapitaldan düzgün istifadə cəmiyyətin ümumi inkişaf dinamikası ilə, sivil münasibətlərin yaranması ilə düz mütənasibdir.

Ədəbiyyat təliminin məzmununu müəyyənləşdirməyin, metodlarını təkmilləşdirməyin müxtəlif prinsipləri var və bu prinsiplər içərisində varislik xüsusi çəkiyə malikdir. Təlim məntiqinin dialektikası da əsaslandırır ki, ədəbiyyat fənninin məzmunu varislik qaydası üzrə tərtib edilir və mənimsədilir. Ona görə də əvvəlki illərdə ərsəyə gəlmiş dərslik və monoqrafiyaları, bədii sənət nümunələrini inkar etməklə deyil, ciddi araşdırma aparmaqla dəyərli istinad xəzinəsinə çevirə bilərik.

İntellektual bütövləşmənin əsas atributu kimi çıxış edən bilik, bacarıq və vərdişlər sistemini formalaşdıran başlıca prinsiplərdən biri, bəlkə də, birincisi varislikdir. Mənimsənilmiş biliyə istinad (varislik) və yeni bilgilər üçün elmi zəminin yaradılması (perspektivlilik) həmişə təlimin mühüm didaktik prinsiplərindən sayılıb. Bizcə, təhsilin bütün mərhələləri arasında varisliyin forma və yolları kompleks araşdırılıb öyrənilməli, kortəbii, epizodik yanaşmalar aradan qaldırılmalı, sanballı dəlillərlə mənimsədilmiş biliklər perspektivdə öyrəniləsi materiallar üçün ciddi istinad nöqtəsinə çevirilməlidir. Fərziyyələr, mülahizələr, faktlar sistemləşdirilməli, düzgün təlimi nəticəyə aparan yolların elmi-nəzəri və praktik istiqamətləri işlənilib hazırlanmalıdır.

Təlimin struktur və məzmununun kökündən dəyişməsi, yeni təlim texnologiyalarının, metodik sistemin tətbiqi, əslində, ədəbiyyatın daxili mahiyyətinə, ədəbi əsərlərin spesifik xüsusiyyətlərinə yeni yanaşmaları labüdləşdirir. Ədəbiyyatın daxili mahiyyətində bir irsilik - ideya, mövzu, süjet qohumluğu var və ədəbiyyat özlüyündə bir vərəsədir. Müxtəlif dövrlərdə yaranmış bədii nümunələr yaradıcı fasiləsizliyin nəticəsidir və bu daxili mahiyyət də varisliyi ədəbiyyatın ana prinsipinə çevirir.

Varislik prinsipinə İ.H.Pestoletsi, V.V.Bartold, Q.İ.Belenkiy, O.Y.Boqdanova, L.Vıqotski, V.M.Jirmunski, V.A.Kan-Kalik, S.A.Kovalenko, Q.N. Pospelov, P.M.Samarin, N.A.Sorokin, L.M.Fridman, F.Köçərli, B.Çobanzadə, C.Heyət, C.Əhmədov, Ə.Cəfər, A.Hacıyev, C.Xəndan, Ə.Qarabağlı, Ş. A.Mikayılov, M.Cəlal, M.Rəfili və başqa alimlərin əsərlərində epizodik toxunulsa da, problem sistemli araşdırılmamışdır.

Tarixi mərhələlər, mövzu və ideyalar, bədii konflikt və kompozisiyalar arasında həmişə optimal bir əlaqə mövcuddur. Bəzən varislik xronoloji ardıcıllıq, sələf-xələf münasibətləri kimi qəbul edilmiş,



təlim prosesinin özünün psixoloji, pedaqoji və məntiqi tərəfləri arasında zəncirvari əlaqənin olduğu isə unudulmuşdur.

Müşahidələr göstərir ki, varislik, bir yöndən, məcburi xronoloji əlaqədirsə, digər istiqamətdən, təlim prosesində bilik, bacarıq və vərdişlər vəhdətini təmin edən didaktik sistemdir. Varisliyin izini yalnız fənnin məzmununda, tarixi xronikasında deyil, həm də təlimi nəticələri doğuran psixoloji məqamlarda, reallaşdırılacaq məzmun standartlarında, şifahi və yazılı nitqin inkişafına təkan verəcək ədəbiyyat və həyat həqiqətlərində axtarmaq lazımdır.

Təhlil və müşahidələr onu deməyə əsas verir ki, əksər müəllimlər varisliyə təfəkkür prosesini irəliyə doğru aparan inkişafetdirici prinsip kimi deyil, tarixi-xronoloji düzüm kimi yanaşır, varisliyi intellektual bütövləşməni, inteqrasiyanı təmin edə bilən başlıca prinsip kimi görmürlər.

Ənənəvi təlimdə fəndaxili, fənlərarası əlaqə gözlənilsə də, konkret inteqrasiya standartları mövcud olmadığından varislik müəllimin peşə sistemogenezisinin əsas şərti kimi çıxış etmir. Fəal təlimdə isə mətnin məzmununun tərtibini, mənimsədilməsi metodlarını varislikdən kənar təsəvvür etmək mümkün deyil və induktiv-deduktiv metod-situasiyalarda, inteqrasiya prosesində varislik elementləri özünü aşkar büruzə verir. Müasir təlimdə inteqrasiya və varislik bir medalın iki üzü kimi görünür. Təlimdə fasiləsizliyi təmin edən bu atribut, yəni varislik bir didaktik prinsip kimi fəal dərsdə iştirak etməzsə, biliklərin praktik tətbiqindən, perspektiv bilik, bacarıq və vərdişlər sistemindən danışmaq olmaz.

Təbii ki, çoxəsrlik tarixi olan ədəbiyyatımız bədii nümunələrlə zəngindir. Həmin nümunələrin tərtib edilərək tədrisə gətirilməsi və mənimsədilməsi prosesində bir didaktik prinsip kimi varisliyin rolunun müəyyənləşdirilməsi bu gün həllini gözləyən vacib məsələlərdəndir. Müşahidələr və elmi-metodiki ədəbiyyatın təhlili göstərir ki, ayrı-ayrı janrlarda yazılmış bədii nümunələrin, ədəbiyyatşünaslığın nəzəri məsələlərinin keyfiyyətli tədrisində və mənimsəməni təmin edən metodların seçimində varislik xüsusi əhəmiyyət daşıyır. Onun təlim keyfiyyətinə ciddi təsiri araşdırılmalı və əldə olunacaq müsbət elmi nəticələr məktəbdə tətbiq edilməlidir.

Bunları nəzərə alaraq mühüm didaktik prinsip kimi varisliyin ədəbiyyat təlimindəki rolunu, təlim keyfiyyətinə təsirini dəqiqləşdirmək üçün “Varislik ədəbiyyat təliminin mühüm prinsiplərdən biri kimi

(ümumtəhsil məktəblərinin V-XI siniflərində)" mövzusunda sistemli elmi tədqiqat aparmağı zəruri hesab etdik.

**Tədqiqatın obyekti** ümumtəhsil məktəblərinin V-XI siniflərində ədəbiyyat təlimi prosesidir.

**Tədqiqatın predmetini** V-XI siniflərdə ədəbiyyat fənninin məzmununun müəyyənləşdirilməsində varisliyin rolu və təlim keyfiyyətinə təsiri məsələləri təşkil edir.

**Tədqiqatın məqsədi** həm ənənəvi, həm də fəal təlim prosesində varislik prinsipinin inkişafetdiricilik xüsusiyyətlərini, ədəbi biliklərin verilməsi prosesində varislikdən istifadənin sistemini və onun təlimi nəticəyə müsbət təsirini müəyyənləşdirməkdir.

**Tədqiqatın vəzifələri:**

- varislik prinsipinin mahiyyətini elmi-metodiki müstəvidə təhlil etmək;
- fənn proqramları və dərsliklərin tərtibində varisliyin rolunu dəqiqləşdirmək;
- elmi-metodiki ədəbiyyatda varisliklə bağlı fikir və mülahizələri ümumiləşdirmək, təhlil etmək, onlara müstəqil, yaradıcı münasibət bildirmək;
- problemlə bağlı məktəb təcrübəsini öyrənmək və mövcud nöqsanların aradan qaldırılmasının optimal yollarını aşkara çıxarmaq;
- ibtidai sinif "Azərbaycan dili" mətnlərini ilkin bədii istinad materialları kimi araşdırmaq, mərhələlərarası spesifikanı izləmək;
- V-XI siniflərdə icmal mövzuların, tərcümeyi-hal materiallarının, folklor nümunələrinin, epik, lirik, dramatik əsərlərin, ədəbiyyatşünaslıq məsələlərinin mənimsədilməsində varisliyin təsirini müəyyənləşdirmək;
- varisliyin təlimdəki inkişafetdiricilik xarakterini nəzərə almaqla təlimdə perspektivliliyi təmin etmək;
- ədəbiyyat təlimində varisliyin rolunu sübut edən səmərəli metod, üsul və vasitələr tapmaq;
- tədqiqatdan irəli gələn nəticələri mütəxəssislərlə müzakirə etmək;
- təklif edilmiş rəy, mülahizə və iradları nəzərə almaqla ədəbiyyat təlimində varisliyin mövqeyini daha da dəqiqləşdirmək.

**Tədqiqatın fərziyyəsi** ona əsaslanmışdır ki, ümumtəhsil məktəblərinin V-XI siniflərində tədris olunan ədəbi nümunələr, ədəbiyyat materialları varislik prinsipinə istinad edilməklə mənimsədilərsə, təlimdə varisliyin rolu, mövqeyi düzgün metodiki sistemdə qurularsa, ümumiyyətlə, ədəbiyyata bütüövlükdə varislik prizmasından yanaşılarsa,



mənimsənilmiş biliklə yeni mənimsəniləcək bilik arasında əlaqənin təmin olunmasına və standartlar üzrə gözlənilən təlimi nəticələrin keyfiyyətlə reallaşdırılmasına nail olunar. Yeni biliklərin mənimsənilmiş biliklər üzərində qurulması təlimdə perspektivliliyə yol açar və məzmun xətləri üzrə işdə inteqrativlik bədii intellektual bütövləşməni təmin edər.

**Tədqiqatın metodoloji əsaslarını** dialektik idrak nəzəriyyəsi, klassik və müasir tədqiqatçıların varisliklə bağlı fundamental ideyaları, ümumiləşdirilmiş pedaqoji fakt və hadisələr, bilik taksonomiyaları, təlimi inkişaf etdirmək, təlimi nəticələri təmin etmək üçün tətbiq edilən prinsip, metod, üsulların məcmusu təşkil edir.

**Tədqiqat metodları** işin səciyyəsinə uyğun olaraq müəyyənləşdirilmiş, nəzəri təhlil, müşahidə, müsahibə, şifahi və yazılı sorğular, anketləşdirmə, testləşdirmə və pedaqoji eksperimentlərdən istifadə olunmuşdur. Eksperimentlərin nəticəsini əks etdirən müvafiq cədvəllər də dissertasiyada öz əksini tapmışdır ki, bunlar da statistik metod elementləridir.

**Tədqiqatın elmi yeniliyi** bununla müəyyənləşir ki, V-XI siniflərdə ədəbiyyat fənninə aid materialların mənimsənilməsinə varisliyin təsiri elmi-metodiki sistemdə araşdırılır, ona intellektual bütövləşməni və təlimdə fasiləsizliyi təmin edən başlıca prinsip kimi yanaşılır. Mənimsəməyə varisliyin təsirini sübut edən şərtlər, tələblər geniş şəkildə tədqiqata cəlb edilir, əldə olunan nəticələr ümumiləşdirilir.

**Tədqiqatın nəzəri əhəmiyyəti**. Elmi nəticələr varisliyin mənimsəməyə təsiri modelini yaradır, bədii nümunələr, ədəbiyyatşünaslıq məsələləri bu modelin tələbləri əsasında analiz edilir. Təlimi yanaşmalardakı pərakəndəliklər aradan qaldırılmaqla sübut edilir ki, varislik bir didaktik prinsip kimi pedaqoji nəzəriyyənin zənginləşməsinə xidmət edir və o, təlimdə tamlığın, bütövlüyün, sistemliliyin, fasiləsizliyin təminatçısıdır.

**Tədqiqatın praktik əhəmiyyəti** ondadır ki, tədqiqat işinin nəticələrindən ümumtəhsil məktəblərinin ədəbiyyat müəllimləri, bu sahədəki bəzi problemləri yenidən tədqiq edəcək gənc mütəxəssislər elmi-praktik mənbə kimi istifadə etməli olacaqlar. Təlim metodlarından istifadə prosesində, proqram, dərslik, metodik vəsaitlərin tərtibində dissertasiyada irəli sürülən təklif, irad və elmi mülahizələr nəzərə alınacaq, inteqrasiya, varisliklə bağlı irəli sürülən müddəalar bütövlükdə təlim prosesinin düzgün qurulmasına xidmət edəcəkdir. Dissertasiyadan orta məktəb müəllimləri, bakalavr və magistrlər, bu sahəni öyrənən tədqiqatçılar yararlana biləcəklər.

**Müdafiəyə təqdim olunan müddəalar aşağıdakılardır:**

a) varislik ədəbiyyat fənninə aid biliklərin sistemli, elmi əsaslarla mənimsənilməsinə təsir edən "əbədi" problemdir və ədəbiyyat təliminin düzgün qurulmasında birbaşa iştirak edir;

b) varislik təlimdə inteqrativliyin təminatçısıdır və şagirdlərin ədəbiyyat haqqında təsəvvürlərinin genişlənməsinə, bədii-intellektual bütövləşməyə xidmət edir;

c) varisliyi yalnız ədəbi əsərlərin məzmununun, nəzəri tərəflərinin mənimsənilməsi prosesində deyil, təlimin metod və texnologiyalarında, təlim prosesinin psixoloji tərəflərində də gözləmək lazımdır;

ç) varislik təlimin təşkilat formalarını, metod və texnologiyaları, şagirdlərin rabitəli nitq inkişafını, yaradıcı-bədii təfəkkürü formalaşdırmağa qadir pedaqoji prinsip və "ömürboyu təhsili" təmin edən başlıca faktordur.

**Tədqiqatın nəticələrinin aprobasiyası və tətbiqi**. Tədqiqat Tİ-nin "Ümumi təhsilin və məktəbdənkənar təhsilin kurikulumu" şöbəsində hazırlanmış, tədqiqatla bağlı müxtəlif elmi-praktik konfranslarda, metodiki seminarlarda məruzələr edilmiş, Ali Attestasiya Komissiyasının tövsiyə etdiyi jurnallarda, xarici mətbuatda məqalələr çap edilmiş, dissertasiyanın əsas müddəaları dərslik və dərs vəsaitlərində öz əksini tapmışdır.

**Dissertasiyanın quruluşu.** Tədqiqat işi giriş, iki fəsil, nəticə və təkliflər, istifadə olunmuş ədəbiyyat göstəricisindən ibarətdir.

## TƏDQİQATIN ƏSAS MƏZMUNU

**"Giriş"**də tədqiqatın aktuallığı əsaslandırılır, obyekti, predmeti, məqsəd və vəzifələri, işçi fərziyyəsi, metodoloji əsasları, elmi yeniliyi, nəzəri-praktik əhəmiyyəti, müdafiəyə çıxarılan müddəalar müəyyənləşdirilir, istifadə olunan tədqiqat metodları göstərilməklə tədqiqi nəticələrin aprobasiyası, dissertasiyanın quruluşu təqdim edilir.

Dissertasiya işinin **"Varislik prinsipinin elmi-pedaqoji mahiyyəti"** adlı I fəsli 3 yarımfəsildən ibarətdir. ***"Varislik prinsipi elmi-metodiki anlayış kimi"*** adlanan birinci yarımfəsildə "varislik" anlayışının mahiyyəti, onun fəlsəfi, pedaqoji, metodiki tərəfləri araşdırılır, antik dövrdən tutmuş müasir dövrümüzə qədər fəaliyyət göstərmiş görkəmli filosof, pedaqoq və ədəbiyyatşünasların fikir və



mülahizələri təhlil edilir. Göstərilir ki, varislik nəsillərarası informasiya mübadilələrində, cəmiyyətdaxili təkmilləşmədə, yeni intellektual kapitalın formalaşmasında və bütün bunları təmin etməyə zamin təlim prosesində aktuallığını saxlayan "əbədi" problem olaraq qalmaqdadır. Bu "əbədi" problemin pedaqoji prosesdə oynadığı rolu dəqiqləşdirməzdən əvvəl, onu fəlsəfi müstəvidə araşdırmaq mühüm əhəmiyyət kəsb edir.

Təlimdə varisliyi araşdıran bəzi tədqiqatçı filosoflara görə varislik metodiki ədəbiyyata pedaqoji prosesin fəlsəfi konsepsiyasından daxil olmuşdur. Bu mülahizəyə əsaslanmaqla ilk olaraq keçmiş biliklə yeni bilik arasındakı pedaqoji əlaqə, təlimi inkişafın istiqaməti və xarakteri araşdırılır, aydınlaşdırılır ki, metodika tarixinin keçmiş halının məcmusu istənilən halda onun gələcəyinin müəyyənləşməsində iştirak edir. Yəni gələcək nəsillərin pedaqoji fəaliyyət istiqamətini şərtləndirən amillərdən biri də keçmiş nəsillərin pedaqoji fəaliyyət ənənəsidir. "Ənənə bədii nümunələrin müasir əhəmiyyətini qoruyan və irəliyə doğru mütərəqqi inkişafda fasiləsizliyi təmin edən incəsənət təcrübəsidir. Bu təcrübədən çıxış etmədən hər hansı bir sənət nümunəsinin bədii dəyərini, onu yaradan sənətkarın ədəbi inkişaf və təkamüldə yerini müəyyənləşdirmək mümkün deyildir" [1] Ənənəyə şüurlu münasibət göstərmədən varislik prinsipinin mahiyyətini, onun dialektik inkişaf prosesində oynadığı rolu aydınlaşdırmaq mümkünsüzdür.

Birinci yarımfəsildə antik dövr fəlsəfi yanaşmasında varisliklə bağlı fikirlərə ekskurs edilir, Aristotelin "Metafizika" əsərinə əsaslanmaqla varislik haqqında ilkin mülahizələrə yer verilir. Qeyd olunur ki, Aristotelə görə, mahiyyətə nüfuz etmək keçmiş, indi və gələcək arasındakı varislik əlaqəsinin məcmusunda mümkündür. Təcrübəyə əsaslanmaqla insan yaddaşına yazılan məlumatlar müəyyən bir dəyər sistemi yaradır və ədəbiyyat da bu dəyərlər sistemi əsasında formalaşır.

İ.Kantın və digər Avropa filosoflarının varislik haqqında elmi fikirlərinə qismən yer verilməklə nəzərə çatdırılır ki, varislik haqqında bitkin fəlsəfi konsepsiya klassik alman filosofu Hegelə məxsusdur. Fəlsəfə tarixi varisliyə münasibətdə məhz onun dialektik yanaşmasını qəbul edir.

Hegel dialektik inkişaf konsepsiyasına əsaslanaraq varisliyi qanunauyğunluq kimi qəbul edir və tarixi varisliyin rolu haqqında mülahizələr irəli sürərək sübut edir ki, ümumi özünün müəyyənlik pil-

---

[1] Краткий словарь по естетике (под ред. М.Ф.Овсянникова) М.Просвещение, 1983. 223 ст. (ст.177)

ləsində əvvəlki məzmunu yüksəldir və irəliyə inkişafda onu itirmir, əksinə qazanılanları özündə daşımaqla zənginləşir.

Hegelə görə, inkişafda varislik hansısa müəyyənliyin sıçrayışlı keyfiyyət dəyişikliyi öz əksliyinə keçdikdə məzmunun qorunub saxlanılması deməkdir.

Hegelin problemlə bağlı dəyərli təhlilləri sonrakı dövrlərdə varislik prinsipinin elmi əsaslarla öyrənilməsinə stimul vermiş, E.A.Baller, A.M.Milkin, V.A.Podolski, M.P.Palesov, C.Lokk, K.Yunq, S.P.Baranova, V.Slastonina, Y.A. Samarin, A.A. Lyublinskaya, A M.Orlova, B.Q.Ananev, V.V.Stepanov və digərləri varisliyi bəzən eyni nöqtədən, bəzən zidd mövqelərdən təhlil etmişlər. Mühafizəkarlıq, təkrarlama kimi anlayışlar da varisliyin təhlil müstəvisinə gətirilmiş, özünü göstərən oxşar, fərqli cəhətlər araşdırılmış və göstərilmişdir ki, bədii-nəzəri materialların xronoloji düzümdə tədrisi hələ varislik demək deyildir. Bu proses yeni biliklərə keçid, mənimsənilmiş biliklərin yeniləşməsi məqamında dominant rolunda çıxış etməlidir. Varislik prinsipi ədəbiyyat fənni üzrə müxtəlif siniflərdə şagirdlərə aşılanan bilik, bacarıq və vərdişləri reallaşdıraraq nisbi sabitliyin, dayanıqlılığın mövcud olmasını şərtləndirməklə bərabər, tədris prosesinin sonrakı inkişafına impuls verən daxili determinant funksiyasını daşımalıdır.

Bu mərhələdə varislik inkarı inkar qanununun mühüm prinsiplərindən biri kimi müxtəlif səciyyədə təhlil edilir, ənənə və novatorluq, tarixilik və perspektivlik kimi anlayışların məcmusunda varisliyin bütün spektrləri işıqlandırılır. Göstərilir ki, ənənə olmayan yerdə novatorluq yoxdur və novatorluğun da ana xətti ənənədən qaynaqlanır. Tarixilik və perspektivlilik də onlarla vəhdətdə varisliyi tamamlayan komponentlərdir. Təəssüf ki, E.Y.Kərimovanın ibtidai sinif mərhələsini əhatə edən “Oxu və ədəbiyyatın tədrisi prosesində varislik və perspektivlik” adlı namizədlik dissertasiyasını nəzərə almasaq, təlimdə varislik prinsipinin rolu ilə bağlı Azərbaycan alimlərinin sanballı tədqiqatlarına rast gəlinmir.

***“Proqram, dərslik və nəzəri-metodik ədəbiyyatda problemin qoyuluşu”*** yarımfəslində proqram, dərslik və metodiki ədəbiyyatın inkişaf tarixi araşdırılır. Proqramın təlimdəki mövqeyi aydınlaşdırılmaqla göstərilir ki, nəticəni müəyyən fəaliyyət proqramına əsaslanmadan qazanmaq mümkün deyildir. Müasir tələblərə nəzərən primitiv görünən orta əsr mollaxana, mədrəsə sənədləri belə müəyyən tənzimləyici xarakterə malik olmuş və təlimin təşkilinə yardım göstərmişdir.



Ədəbiyyat tədrisinin ümumi inkişaf tarixi ilə əlaqəli araşdırmalar onu göstərir ki, varislik proqram tərtibində didaktik prinsip kimi iştirak edir. Buna görə də bu yarımfəsildə “Dil və ədəbiyyat proqramı”ndan (Bakı, Azərnəşr, 1930 ) “Ümumi təhsilin fənn standartları”na (Bakı, 2012) qədər keçilmiş yola nəzər salınır, ayrı-ayrı proqramlar, tədrisi tövsiyyə olunan müəlliflər, bədii nümunələr varislik prinsipi əsasında araşdırılır. Repressiya dövrünün nəticəsi olaraq proqrama düşməyən H.Cavid, Ə.Cavad, A.İldırım kimi sənətkarlar, “Kitabi-Dədə Qorqud” eposu yeni baxış bucağından təhlil edilir.

Müasir proqramlarda fənnin məzmunu, təlimi nəticələr, məzmun xətləri (ədəbiyyat və həyat həqiqətləri, şifahi nitq, yazılı nitq), ayrı-ayrı siniflər üzrə məzmun standartları, onun həyata keçirilməsi istiqamətləri kimi məsələlər öz əksini tapmışdır ki, dissertasiyada, yeri gəldikcə, bu məsələlərdən danışılır, təlimə verilən müasir tələblər ( pedaqoji prosesin tamlığı, təlimdə bərabər imkanların yaradılması, şagirdyönümlülük, inkişafyönümlülük), ədəbiyyat təliminin təşkilində istifadə olunan metod və üsullar varislik işığında təhlil edilir.

M.F.Axundovun “Əlifba-yi cədid”dən müasir dövrümüzə qədər müxtəlif ictimai siyasi formasiyalarda milli məktəbin formalaşmasına xidmət etmiş dərsliklər ardıcıllıqla araşdırılır və prosesdə varisliyin rolu işıqlandırılır.

A.N.Çerniyayevski, R.Əfəndiyev, M.Ş.Vazeh, A.Bakıxanov, S.Ə.Şirvani, S.M.Qənizadə, M.Mahmudbəyov, A.Tahirov, M.Sidqi, C.Məmmədquluzadə, F.Köçərli, A.Şaiq, M.Rəfili, N.Cəfərov, S.Hüseynoğlu, B.Həsənli, F.Yusifov və digər müəlliflərin fəaliyyəti işıqlandırılır. “Nəsihətnamə”, “Vətən dili”, “Uşaq bağçası”, “Bəsirətül-ətval”, “Türk əlifbası və türk qiraəti”, “Kitabçayi-ədəbiyyə”, “Uşaq gözlüyü”, “Gülzar” “İkinci il”, “Yeni qiraət”, “Ədəbiyyat” dərslikləri müqayisəyə cəlb edilir və onların hazırlanmasında varisliyin rolu elmi baxımdan əsaslandırılır.

Yekun olaraq diqqət F.M.Yerar və K. Polyenin “Məktəb dərsliklərinin hazırlanması və təhlili” adlı tədqiqat əsəri əsasında hazırlanmış “Dərslik necə olmalıdır” kitabındakı zəruri sitata yönəldilir: “Dərsliklər şagirdləri düşünməyə sövq etməli, onlarda müstəqil tədqiqatçılıq, yaradıcılıq vərdişləri aşılamalı, tənqidi təfəkkürü inkişaf etdirməlidir. Unutmaq olmaz ki, sadaladığımız bu keyfiyyətlər şəxsiyyətin inkişafına yol açan amillərdir. Elmin müxtəlif sahəsindəki kəşflər, texniki, texnoloji nailiyyətlər məhz geniş diasporlu təfəkkürün

nəticəsidir. Ona görə də dərsliklər tətbiqi xarakter daşımalı, inteqrativ xüsusiyyətə malik olmalıdır"[1]

Problemin metodiki ədəbiyyatda qoyuluşu ilə bağlı Ə.Qarabağlı, C.Əhmədov, A.Babayev, Ş.Mikayılov, A.Hacıyev kimi metodist alimlərin adları çəkilir və təəssüflə qeyd olunur ki, bu müəlliflər ədəbiyyat tədrisinin bir çox məsələlərinə toxunsalar da, varisliyin təlimdəki yerindən, onun mənimsəməyə təsir imkanlarından qədərincə bəhs etməmişlər. Onlardan fərqli olaraq rus alimləri problemi dərindən öyrənmiş və bir çox dəyərli tədqiqat əsərləri yazmışlar. Tədqiqat işində "Преемственность в обучении и взаимосвязь между учебными предметами в V-VII классах." (1961), "Преемственность и перспективность в обучении русского языка" (1982), "Преемственность в обучении литературу V-IX классах", "Tarixin tədrisində varislik" (red. E.İ Nikonorov), V.V.Stepanovun "Şagirdlərin nitq inkişafında varislik və perspektivlilik" kimi əsərlər təhlil edilir, varisliyin təlim keyfiyyətinə təsiri məsələləri araşdırılır.

Diqqətə çatdırılır ki, Ş.İ.Qanelinə görə, varislik bir xronoloji düzüm deyil, təlimin məzmununun mahiyyətindədir. Əldə olan vərəsə vaxta qənaətdir. Vaxta qənaətlə verilən sistemli bilik isə varisliyi gücləndirməklə, perspektivdə öyrəniləcək materiallar üçün geniş üfüqlər açır. V.V. Stepanovsa perspektivliyə varisliyin ikinci tərəfi kimi baxır və qeyd edir ki, varisliyin psixoloji tərəflərini tam aydınlaşdırmadan onun təlimdəki yerini dəqiqləşdirmək mümkün deyildir. Şagird əvvəl öyrəndiklərinin psixoloji baxımdan itkiyə getmədiyini gördükdə gələcəkdə öyrəniləcək mövzulara maraq oyanır.

I fəslin son yarımfəslində **(*"İbtidai sinif "Azərbaycan dili" mətnləri ədəbiyyat təlimində ilkin istinad mənbəyi kimi*")** ibtidai sinif mətnləri ədəbiyyat təliminin ilkin istinad mənbəyi kimi araşdırılır, bu mərhələdə aparılan işlərin düzgün təşkilinin tam orta məktəb ədəbiyyat təliminə təsiri imkanları öyrənilir. Dəqiqləşdirilir ki, ibtidai siniflərdə elmi-kütləvi materiallar üstünlük təşkil etsə də, "Ədəbiyyat" dərslikləri üçün təməl rolunda çıxış edən bədii mətnlər də (nağıl, hekayə, təmsil, atalar sözləri, hikmətli sözlər, məsəllər, oçerk, pyes...) azlıq təşkil etmir.

"Ana sözü" (red. Y.Kərimov), "Oxu" (red.Y.Kərimov), "Oxu" (red. N.Kazımov), "Azərbaycan dili" (IV sinif, R.İsmayılov və başqaları) dərsliklərinin təhlili göstərir ki, ibtidai siniflərdə oxu texnikasına, oxu vərdişləri kompleksinə sahiblənmə ilk təəssüratda mexaniki qavrama,

[1]Dərslik necə olmalıdır. Bakı, Bka-Ofset, 2003, 117 s. (3)



ifadəli oxu vərdişləri yaratmaq təşəbbüsü kimi dərk edilsə də, burada V-VII sinif "Ədəbiyyat" dərsliklərinin tərtibi üçün istənilən qədər material mövcuddur və bədii məzmun, janr, obraz, vəzn və ədəbiyyat nəzəriyyəsi haqqında ilkin məlumatların bünövrəsi də məhz bu mərhələdə qoyulur.

İbtidai sinif mərhələsində formalaşan oxu texnikası, oxu vərdişləri kompleksi gələcəkdə iri həcmli əsərlərin məzmunu və ifadəli oxusu üzrə işlərin təşkilinə müsbət təsir göstərir.

**"Varisliyə istinad ədəbiyyat təliminin mühüm prinsiplərindən biri kimi"** adlı II fəslin ilk yarımfəslində tərcümeyi-hal materiallarının öyrədilməsində varislikdən istifadənin imkanları araşdırılır və göstərilir ki, kurikuluma görə, bu materialların mənimsədilməsinə ayrıca təlim saatı ayrılmasa da, müxtəlif siniflərdə müəlliflər haqqında məlumat vermənin məzmunu, strukturu, forması müəyyənləşdirilməlidir. Məsələn, V-VII siniflərdə tərcümeyi-hal materiallarının öyrədilməsi bir tələb kimi qarşıya qoyulmasa da, dərsliklərdə "Müəlliflə tanışlıq" başlıqları altında verilən yığcam bioqrafik məlumat, təəssürat və rəylərin tədrisi imkanları axtarılmalıdır. Onsuz da aşağı siniflərdə şagirdləri müəllif deyil, daha çox əsərin məzmunu, obrazlar, bədii situasiyalar maraqlandırır.

Mənəvi kriteriyadan estetik kriteriyaya keçid mərhələsində (VIII-XI siniflər) artıq şagird əsərdəki müəyyən detalları öz şəxsi həyatının parçası kimi qəbul edir və yaranan eqomərkəzləşmə bədii əsərin yaranmasında müəllifin rolunu, onun şəxsiyyətini araşdırmağa sövq etdirir. Şagird bədii nümunənin yaradılmasında müəllifin rolunun nədən ibarət olduğunu anlayır və nəcib əxlaqi, mənəvi keyfiyyətləri bədii nümunədə aşılayan müəllifi fövqəladə istedad sahibi, örnək kimi diqqət mərkəzində saxlayır. Artıq sənətkarın keçdiyi yol, həyat tərzi, ictimai-siyasi mövqeyi, yaşadığı mühit onu dərindən maraqlandırır. Bədii əsərin qayəsi, obrazlar müəllifin real şəxsiyyəti ilə tarazlıq təşkil etmədikdə şagird - oxucu stress keçirir, öz estetik idealından belə imtina edir. Buna görə də VIII-XI siniflərdə tərcümeyi-hal materialları yeni ampluada mənimsədilir.

Ə.Qarabağlı haqlı olaraq göstərir ki, "Ədibin tərcümeyi-halı ədəbiyyat tarixindəki mövqeyinə və onun özünün tərcümeyi-halının örnək xarakterliliyi, tərbiyəvi əhəmiyyəti nəzərə alınmaqla öyrənilməlidir"[1]

Böyük rus tənqidçisi V.Q. Belinski isə görkəmli adamların həyatı üzərində müşahidəni ən gözəl tamaşa adlandırır. Bu mövqedən yanaşsaq, yazıçının həyat və yaradıcılığını əks etdirən icmal mövzular, monoqrafik

[1] Qarabağlı Ə. Azərbaycan ədəbiyyatının tədrisi metodikası. Ali məktəblər üçün dərslik. Bakı, Maarif, 1968, səh. 61

məlumatlar tamaşanın canlı, gözəl alınmasına xidmət etməlidir. Dərs-mühazirə, şagirdlərin müstəqil məruzələri, dərslik üzrə iş, qiyabi səyahət, dərs-konsert, dərs-panorama kimi formatlardan istifadə etməklə müəllifin həyat və yaradıcılığı da bədii əsərlər kimi sistemli öyrənilməlidir. Əyaniləşdirmə şəkil → kitab → plakat→ sxem → fono-video material və qeyri-sənədlərlə təmin edilməlidir.

Bir sıra müəlliflərin ( Ə.Xaqani, M.F. Axundov, M.Ə.Sabir, S. Vurğun, S. Rəhimov) tərcümeyi-halının mənimsədilməsində varisliyin imkanları araşdırılır və göstərilir ki, eyni müəllifin müxtəlif siniflərdə təqdim olunan tərcümeyi-halı varislik prinsipinə əsaslanaraq mənimsədildikdə təlim keyfiyyətinə müsbət təsir edir. Belə nəticəyə gəlinir ki, tərcümeyi-hal materialları mənimsədilərkən aşağıdakı tələblər gözlənilməlidir:

1) Yazıçının tərcümeyi-halına onun yaşadığı mühitin kontekstində yanaşılmalı, ictimai-siyasi bağlantılı nöqsanlar çox qabardılmamalıdır.

2) Ayrı-ayrı müəlliflər barədə xatirələrdə, «ağız ədəbiyyatı»nda olan ziddiyyətli, dəqiqləşdirilməmiş məlumatlar şagirdlərə çatdırılmamalıdır.

3) Klassiklər və klassikləşmiş sənətkarlarımız haqqında yazılan monoqrafiyalar, tədqiqat əsərləri tədris zamanı diqqətdən kənarda qalmamalıdır.

4) Tərcümeyi-hal materiallarını dərindən mənimsətmək üçün ədiblərə aid şəkillər, illüstrativ sənət əsərləri, zamandaşların xatirə kitabçaları, müasir ədiblərin səsi yazılmış lentlər köməkçi vasitələr kimi ədəbiyyat kabinetində cəmlənməlidir.

**“*Varislikdən istifadənin folklor nümunələrinin mənimsədilməsinə təsiri*”** yarımfəslində göstərilir ki, ədəbiyyat proqram və dərsliklərində folklor 1930-cu illərdən geniş yer tutur. XIX əsrin sonlarından başlayaraq tərtib edilmiş bütün dərsliklərdə folklor nümunələrinə bu və digər dərəcədə rast gəlinir. Bu baxımdan F. Köçərlinin “Balalara hədiyyə” adlı folklor toplusu təqdirəlayiq bir nümunədir.

Əslində, folklor, şifahi xalq ədəbiyyatı nümunələri ədəbi irsdir və burada varisliyin yeri daha aydın görünür. Bəzi istisnalar olmaqla bütün illər boyu tədris proqramlarında xalq ədəbiyyatı nümunələrinə yetərincə diqqət yönəldilmiş və folklorun çoxşaxəli janrlarını əhatə edən əsərlər, demək olar ki, orta məktəbin bütün siniflərində tədris olunmuş, bir misralıq atalar sözlərindən “Kitabi-Dədə Qorqud”, “Koroğlu” kimi nəhəng dastanların tədrisinə qədər uzun bir təlimi yol keçilmişdir. “Laylalar və nazlamalar”dan (V sinif) “Kitabi-Dədə Qorqud” a (X sinif) qədər keçilən



yolda varislik didaktik prinsip kimi gözlənilmiş, onun təlim keyfiyyətinə müsbət təsiri öz metodiki həllini tapmışdır.

Tədqiqat işində aşağı siniflərdən başlayaraq əfsanə, əsatir, məsəl, lətifə, nağılların tədrisi məsələləri sistemləşdirilir və varisliyə söykənməklə folklorun çoxşaxəli, irihəcmli janrı olan dastanların tədrisi üçün zəmin hazırlanır. Azərbaycan folklorunun pik nöqtəsi sayılan “Koroğlu”, “Kitabi-Dədə Qorqud” dastanları kurikulumun məzmununa və təlim standartlarına müvafiq təhlil edilir. “Alı kişi”, “Dəmirçi oğlunun Çənlibelə gəlməsi”, “Durna teli”, “Keçəl Həmzənin Qıratı qaçırması” qollarının mənimsədilməsində varisliyin təlim keyfiyyətinə təsiri əsaslandırılır. Sübut edilir ki, orta əsrlər realist ruhlu ədəbiyyatın möhtəşəm abidəsi olan “Koroğlu” dastanının ayrı-ayrı qollarının tədrisindəki məzmun, süjet, məfkurə mərkəzləşməsini təmin edən başlıca prinsip, dastanın qollarını inteqrasiyaya, bütövləşməyə aparan ana xətt varislikdir. Dastanın ümumi məfkurə istiqaməti, Koroğlu obrazının tam səciyyəsi V sinifdə tədris olunan “Alı kişi” qolu ilə başlanır və X sinifdə mənimsədilən “Keçəl Həmzənin Qıratı qaçırması” qolu ilə tamamlanır.

“Kitabi-Dədə Qorqud”la tanışlıqsa ibtidai sinifdəki “Qaraca Çoban” mətni ilə başlanır və X sinfə qədər davam edir. Dissertasiyada dastanın ümumtürk mifologiyasındakı yeri, mədəniyyətimiz, məişət tərzimiz, qəhrəmanlıq tariximiz, ayrı-ayrı boylardakı ideya-estetik tutum, obrazların xarakteristikası varislik işığında araşdırılır. Şagirdlər 1500 illik tarixi dövrün türk-oğuz düşüncə tərzinin, fəaliyyətinin bitkin elementlərini bu prosesdə öyrənirlər. Etnopedaqoji mahiyyət, etnoqrafik mənbələr, ailə-məişət elementləri, qəhrəmanlıq səhifələri, vətənpərvərlik, türkçülük, azərbaycançılıq, islam dininə ehtiram kimi dəyərlər dastanı şagirdlərin maraq dairəsinə daxil edir. Dastanın ayrı-ayrı boyları VI, (“Basatın Təpəgözü öldürdüyü boy”), VIII ( “Qazan bəyin oğlu Uruz bəyin dustaq olduğu boy”) və X (“Salur Qazanın evinin yağmalandığı boy”) siniflərdə öyrənilir. Eposun yaranma şəraiti, ayrı-ayrı boyların yarandığı tarixi dövr və məkan, Oğuz dövləti qurmağa hesablanmış ideyalar, Dədə-Qorqud tarixi-mifoloji şəxsiyyət kimi, dastanın ümumi məzmunu, strukturu, bədii xüsusiyyətləri, dastan qəhrəmanlarının ümumi səciyyəsi, ümumiyyətlə, eposun tam öyrənilməsi aşağı siniflərdə qazanılmış məlumatlara, bədii-semantik vərəsəyə istinad edilməklə X sinifdə tamamlanır. Varisliyin mənimsəmə keyfiyyətinə və təlim standartlarının reallaşdırılmasına təsirini dissertasiyada təqdim olunan cədvəldən görmək mümkündür.

***"Varislikdən istifadənin epik, lirik və dramatik əsərlərin mənimsədilməsinə təsiri"*** yarımfəslinin ilk abzaslarında 1923-cü ildə nəşr edilən "İkinci dərəcəli nəcai məktəblərinin proqramı"na daxil edilmiş "Aldanmış kəvakib" povestindən (M.F.Axundov) başlayaraq bu günümüzə qədər tədris olunan epik nümunələrdən, 1930-cu il "Dil ədəbiyyat", 1932-ci il "Türk dili və ədəbiyyatı" proqramlarına daxil edilmiş ədiblərin (C.Məmmədquluzadə, Y.V Çəmənzəminli, T.Ş.Simurğ, A.Şaiq, S. Hüseyn və başqaları) əsərlərindən danışılır və qeyd olunur ki, "xalqın yenicə oyanmış şüurunun ədəbiyyat aləmindəki ilk yetişmiş meyvəsi olan epos"(V.Q. Belinski) həmişə ədəbiyyat tədrisinin diqqət mərkəzində olmuşdur.

Tədqiqat işində epik janrın hekayə, povest, roman, novella, epopeya, idilliya, oçerk kimi növlərinin adı çəkilir və janr xüsusiyyətləri ardıcıllıqda araşdırılır. A.Şaiqin "Köç", Ç. Aytmatovun "Dəniz kənarıyla qaçan Alabaş", "M.Cəlalın "İtə ataram, yada satmaram", S.S.Axundovun "Qaraca qız", "Nurəddin", Ə.Məmmədxanlının "Buz heykəl", C.Məmmədquluzadənin "Qurbanəli bəy", Ə.Haqverdiyevin "Mirzə Səfər", M.İbrahimovun "Talesiz insanlar", Ə.Əylislinin "Ürək yaman şeydir", Elçinin "Bülbülün nağılı", Anarın "Keçən ilin son gecəsi" əsərləri müxtəlif prizmalardan təhlil edilir və bu əsərlərin mənimsənilməsində varisliyin rolu aydınlaşdırılır. Mövzu, süjet, problem, əsas və epizodik obrazlar, əsərin bədii xüsusiyyətləri, nəzəri anlayışlar, müəllifin məqsədi kimi məsələlər diqqət mərkəzinə gətirilir və təlim standartlarının reallaşdırılması yolları axtarılır.

Daha çox səhnədə oynanılmaq üçün nəzərdə tutulan dramatik əsərlərin tədrisi məsələlərindən bəhs edilir, monoloq, dialoq üslublarından danışmaqla şagirdlərin diqqəti aşağı siniflərdən bildikləri dramatizm, hərəkət anlayışlarına yönləndirilir. Qeyd edilir ki, fərdi monoloji çırpıntılar dramatik əsərlər üçün başlanğıc qavrama mərhələsidir. Daha sonra X-XI siniflərdə tədris olunan "Hacı Qara", "İblis", "Oqtay Eloğlu", "Vaqif", "Xurşid Banu Natəvan" əsərlərinin tədrisində varisliyin təlim keyfiyyətinə təsiri imkanlarından danışılır və konkret dərs nümunəsi olaraq "Hacı Qara" komediyası əsasında müasir təlim texnologiyaları, təlim standartlarının reallaşdırılması məsələləri şərh edilir. Əsaslandırılır ki, dramatik oxu ilə bərabər personajların xarakterinin açılmasına, eləcə də obrazların dilinə diqqət ayrılsa, daha yüksək təlimi nəticələr əldə olunar. Dramatik əsərlərin təbiətində olan dramatizm fəal təlim metodlarından, yeni təlim texnologiyalarından istifadəyə geniş imkanlar açır. Bu imkanların güclənməsinə təkan verən varislik təlim keyfiyyətinə



müsbət təsir edər. Təlim standartlarına uyğun olaraq şagirdlər bədii nümunənin janr xüsusiyyətlərini müəyyən edə (1.1), mürəkkəb kompozisiyalı əsərlərin məzmununu qavramaqla obrazlarla bağlı həm yazıçının, həm də özünün mövqeyini işıqlandıra, şifahi (2.1) və yazılı (3.1) bacarıqlarını nümayiş etdirə bilərlər.

***"Ədəbiyyat nəzəriyyəsinin öyrənilməsində varislik prinsipinə istinad imkanları"*** yarımfəslində nəzəri məsələlər ədəbiyyat təliminin tərkib hissəsi kimi götürülür və əsaslandırılır ki, bu məlumatları bilmədən bədii əsərin tam dərk edilməsi mümkünsüzdür.

Şagirdlər nəzəri biliklər vasitəsilə bədii əsərin janr xüsusiyyətləri, spesifikası, ədəbi mühit, ədəbi cərəyanlarla tanış olur, onlarda estetik münasibət, bədii təxəyyül formalaşır. Şüurlu mütaliə və ədəbiyyat nümunəsinə yaradıcı münasibət ədəbiyyat nəzəriyyəsini dərindən bilməklə formalaşır.

V-VIII siniflərdə bədii materiallar xronoloji ardıcıllıqla deyil, məzmun sadəliyi üzrə təqdim edildiyindən nəzəri materialları sistemli öyrənmək elə də asan deyildir. Təbii ki, şagirdlər aşağı siniflərdən elmi əsərlə bədii əsəri, şeirlə riyazi düsturu, coğrafi terminlə bədii termini fərqləndirir, şifahi xalq ədəbiyyatı nümunəsini yazılı ədəbiyyat nümunəsindən ayırır, şeir vahidlərini (misra, beyt, qafiyə, heca), ədəbi janrları (epik, lirik), əsərin qəhrəmanlarını, hadisələrarası əlaqələri müəyyən etməyi bacarır.

Tədqiqatın bu hissəsində əsaslandırılır ki, varisliyi gözləməklə ədəbi əsər, mövzu, ideya, müəllif, dramatik dialoq, mənzum nağıl, fantastik əsər, bədii portret və peyzaj, süjet, bədii sual haqqında verilən ilkin icmal-məlumatlar yuxarı siniflərdə daha geniş icmal-mühazirələrlə dərinləşdirilə bilər. Oxşar anlayışların müqayisəsi bilik və vərdişlərə uyğunlaşma prosesini gücləndirər. Dissertasiyada göstərilir ki, "Bunu bilməlisən" xəbərdarlığı altında verilən nəzəri məlumatlar: bədii əsərlərdə təsvir ("Usta-şagird"), ideyanın müəyyən edilməsi ("Ağ saçlar"), fikrin obrazlı ifadə edilməsi ("Azərbaycan"), məcaz, bənzətmə, epitet ("Tala"), bədii əsərin hissələri ("Oğru") yuxarı siniflərdə öyrədiləcək materiallar üçün zəmin hazırlamağa xidmət edir.

Nəhayət, ***"Eksperimentin təşkili, aparılması və nəticələri"*** adlı sonuncu bölmədə tədqiqatın aparıldığı illərdə qoyulmuş eksperimentlər, aparılan rəy və sorğuların nəticələri öz əksini tapır. Varislik, onun inkişaf dinamikası, təlim keyfiyyətinə təsiri müəyyənləşdirici eksperimentlər vasitəsilə dəqiqləşdirilir, fakt, mülahizə və ehtimallar əsaslandırılır. Anket sorğuları sistemləşdirilir, qabaqcıl məktəblərinin paralel və pilot

siniflərində müəyyənedici, öyrədici, yoxlayıcı eksperimentlər qoyulur. Pedaqoji kontingent, prosesin özü və pedaqoji texnologiyalar üçün münbit şərait nəzərə alınmaqla eksperimentlər Bakı şəhərinin 35, 159, 19, 133, 52, 138, Zəngilan rayonunun 4, 11, 29, 36 saylı məktəblərində gerçəkləşdirilir.

Sorğunun nəticəsi olaraq müəyyən edilir ki, müəllimlərin əksəriyyəti yeni materialı mənimsətmədə keçmiş biliklərə istinad etsələr də, varisliyin fəlsəfi, elmi-pedaqoji mahiyyəti barədə dərin bilgiyə sahib deyillər, interferensiya, irradiasiya kimi anlayışlar haqqında ötəri məlumatları var. Təkrar dərslərlə varisliyin, inteqrasiyanın sərhədlərini müəyyənləşdirməkdə çətinlik çəkirlər. Problemlə bağlı elmi-metodiki ədəbiyyatla tanışlıq yox səviyyəsindədir. Sorğuda iştirak edən müəllimlərdən yalnız Ruhəngiz İsmayılova (133 N-li məktəb) M.C.Paşayevin "Klassiklər və müasirlər" əsərini varisliklə bağlı nümunə kimi göstərir. Anket sorğusu və müəyyənləşdirici eksperiment aşağıdakı mənzərəni əks etdirir:

1. Sorğu və müşahidə aparılan məktəblərin müəllimləri yeni dərsin keçmiş biliklərə əsaslanmaqla qurulmasını – varisliyi təlimin əsas komponentlərindən biri kimi qəbul etdiklərini bildirmiş, dərsdə problem-situasiyanın onun əsasında qurulmasını zəruri hesab etmişlər. Göstərmişlər ki, təkrar mahiyyətcə varislik sayılmasa da, "biliklərin qıcıqlandırılması"nda onun rolu danılmazdır və yuxarı siniflərdə şagirdlərin təkrarlama qabiliyyətinin yüksək olması təlim keyfiyyətinə bu cəhətdən müsbət təsir edir.

2. Təlimin varislik əsasında qurulması bədii mətnlərin mahiyyətini anlamağa, şüurlu dərkə, zəruri maraq və tələbatların formalaşmasına kömək edir.

3. Yeni biliyin mənimsədilməsində vərəsədən düzgün istifadə bədii əsərin məzmunu, strukturu və ideya istiqamətlərinə aid mühüm əlamətlərin hərtərəfli öyrədilməsinə, müqayisə və tutuşdurmaların aparılmasına, şəraitə uyğun istifadəyə yardım edir.

4. Təlim materialının diferensiallaşdırılması və inteqrasiyası, oxşar və fərqli əlamətlərin, süjetlərin, obraz səciyyələrinin özünəməxsus xüsusiyyətlərinin sistemləşdirilməsi ədəbiyyat haqqında təsəvvürləri genişləndirir, yaradıcı, müstəqil yanaşmanı təmin edir.

5. Müxtəlif yaradıcı yazılar, testlər və kitab üzərində işlərdən səmərəli istifadə şagirdlərin məntiqi təfəkkürünü inkişaf etdirir, şüurlu fəaliyyətə geniş imkanlar yaradır, onları axtarıcılığa, yaradıcılığa sövq etdirir. Nəticə olaraq şagirdlərdə müqayisə, ümumiləşdirmə və konkretləşdirmə bacarığı formalaşır, bədii təfəkkür və intellektual qabiliyyət inkişaf edir.



6. Təlimdə varisliyin gözlənilməsi şagirdlərdə nitq inkişafı prosesini gücləndirir, bədii mətnlərlə səmərəli iş, mütəmadi mütaliə şagirdlərin nitqini daha aydın, dolğun, səlis və təmiz edir.

7. Ədəbi materialların mənimsədilməsində yaradıcı yazılardan (əzbər yazı, məzmun yazısı, nəsrə çevirmə, esse, ifadə, inşa, oçerk, resenziya, rəy) istifadənin əhəmiyyəti də misilsizdir. Məktəb təcrübəsi göstərdi ki, siniflərarası prosesdə bu işlərin aparılması varisliyə söykənir. Praktik müşahidələr onu da üzə çıxardı ki, yaradıcı yazıların aparılmasına ögey münasibət var. Müvafiq strukturlar, fənn metodbirləşmələri yaradıcı yazıların aparılmasına diqqəti gücləndirməlidir.

8. Təhsilin səviyyəsi yüksəldilməli, obyektiv qiymətləndirmə aparılmaqla şagird fəaliyyəti indeksləşməlidir. Təəssüf ki, müəllimlər qiymətləndirmədə daha çox ənənəvi meyarlara üstünlük verir, aşağı, orta, yüksək, ən yüksək səviyyəni əks etdirən meyarlardan az yararlanırlar. Fənn kurikulumları ilə işləyən müəllim şagirdin nailiyyətini tədris prosesinin bütün mərhələlərində qiymətləndirməli, standartlara və qiymətləndirmə normalarına əsaslanmaqla onun bütün formalarından (diaqnostik, formativ, summativ) istifadə etməlidir.

2010-2012-ci illərdə ümumtəhsil məktəblərinin VI siniflərində qoyulan ***müəyyənedici*** eksperimentlərdən aydın oldu ki, ənənəvi dərslik və proqramlarla iş prosesində fəallıq, əməkdaşlıq, mövzulara yaradıcı münasibət xeyli aşağıdır, dərslərdə müəllimin fəallığı daha çox görünür. Təbii ki, bu siniflərdə fəndaxili və fənlərarası əlaqə də daha çox fənn müəlliminin imkanlarına müvafiq qurulduğundan təlimdə varisliyin yeri və onun təlim keyfiyyətinə təsiri də aydın görünmür.

Müəllimin avtoritarlığı və ənənəvi qiymətləndirmə meyarları dərsin tam canlı və dinamik olmasına imkan vermir. Şagirdlərin keçmiş irsə, bədii nümunənin janr xüsusiyyətlərinə marağı aşağı səviyyədədir və ümumilikdə mətnə yaradıcı münasibət zəifdir.

**35 N-li məktəbdə varisliyin təlim keyfiyyətinə təsiri səviyyəsi (kukirulumdan əvvəl)**

**Cədvəl 2.5.1**

| sinif | Şagirdl ərin sayı | Keçmiş irsdən mənimsəmədə istifadə edir | | Ədəbi nümunələri janr xüsusiyyətlərinə görə fərqləndirir | | Şifahi və yazılı ədəbiyyat nümunələrini fərqləndirir | | Bədii mətnə yaradıcı münasibət bildirir | |
|---|---|---|---|---|---|---|---|---|---|
| | | sayı | %-lə | sayı | %-lə | ayı | %-lə | sayı | %-lə |
| VIa | 34 | 22 | 64,7 % | 20 | 58,8% | 28 | 82,3% | 15 | 44,1% |
| VIb | 30 | 18 | 60% | 16 | 53,3% | 24 | 80% | 14 | 46,6% |
| VIc | 32 | 21 | 65,6% | 18 | 56,2% | 24 | 75% | 14 | 43,7% |
| Cəmi | 96 | 61 | 63,5% | 54 | 56,2% | 76 | 79,1% | 43 | 44,7% |

Yeni fənn kurikulumlaında ədəbiyyat fənninə qoyulan tələblər, təlimin məzmununda olan dəyişikliklər, işin icra mexanizmlərinin təkmilləşdirilməsi, şagirdə subyekt kimi yanaşma eyni siniflərdə 2014-2015-cü illərdə qoyulmuş **yoxlayıcı** eksperimentlər fərqli nəticələrin alındığını ortaya qoydu:

**35 N-li məktəbdə varisliyin təlim keyfiyyətinə təsiri səviyyəsi (kukirulumdan sonra)**

**Cədvəl 2.5. 2**

| sinif | Şagird sayı | Keçmiş irsdən mənimsəmədə istifadə edir | | Ədəbi nümunəni janr xüsusiyyətinə görə fərqləndirir | | Şifahi və yazılı nitq bacarıqlarına malik olduğunu nümayiş etdirir | | Bədii mətnə yaradıcı münasibət bildirir | |
|---|---|---|---|---|---|---|---|---|---|
| | | sayı | %-lə | sayı | %-lə | sayı | %-lə | sayı | %-lə |
| VIa | 30 | 26 | 86,6 % | 24 | 80% | 23 | 76,6% | 22 | 73,3 % |
| VIb | 28 | 23 | 82,1 % | 22 | 78,5% | 19 | 67,8% | 22 | 78,5 % |
| VIc | 32 | 25 | 78,1 % | 26 | 81,2% | 24 | 75% | 23 | 71,8 % |
| Cəmi | 90 | 74 | 82,2 % | 72 | 80% | 66 | 73,3% | 67 | 74,4 % |



Ümumilikdə qoyulan eksperimentlər, müəllim və şagirdlər arasında aparılan sorğular, təlimi müşahidələr onu göstərdi ki, varislik məktəb üçün, təlim üçün yad problem deyil və o, bir pedaqoji prinsip kimi ədəbiyyat təlimində mənimsəmə keyfiyyətinə güclü təsir göstərir.

Məktəblərimizdə təlim resursları ilə bağlı işin təşkili də gücləndirilməli, texniki avadanlıqlar görüntü üçün alınmamalı, İKT-nin (informasiya kommunikasiya texnologiyaları) imkanlarından geniş istifadə edilməlidir. Müasir təlimin düzgün qurulması, təhsildə keyfiyyətin təminatı interaktiv təlim resurslarının təlim prosesinə gətirilməsindən çox asılıdır. Müşahidə, sorğu və eksperimentlərin nəticəsi olaraq bildiririk ki, aşağıdakı təkliflərin həyata keçirilməsi təlimin xeyrinə olar:

1) varislik problemini və onun təlim keyfiyyətinə təsiri yollarını dərindən bilən tədqiqatçı alimlərin məktəb mühazirələri təşkil edilsin;

2) varislik ümumtəhsil fənlərinin mühüm prinsiplərindən biri kimi öyrənilsin və təlimin irəliyə doğru inkişafında, inteqrasiyada onun rolu diqqət mərkəzində saxlanılsın;

3) varislər həm də milli irs, milli vərəsənin sahibləri olduğu üçün inkişafda “inqilabi dəyişikliklərə” deyil, təkamülə üstünlük verilsin. İrsdən imtinada millətin, təhsilin mövqeyi əsas götürülməklə “Biz hansı irsdən imtina etməliyik?” sualına obyektiv cavab axtarılsın.

Tədqiqatın **nəticələrini** belə yekunlaşdırmaq olar:

1. Təhsil sahəsində aparılan ciddi islahatlar, təlimin məzmunu, təşkili formalarındakı yeniliklər, şagirdyönümlülük, nəticəyönümlülük, fasiləsizlik və varislik gənc nəslin hərtərəfli inkişafına zəmin yaradır;

2. Orta ümumtəhsilin bir sıra köklü problemlərinin həllində varislik bir didaktik prinsip kimi özünü göstərir və aşağı siniflərdə əldə olunmuş bilik, bacarıq və vərdişlər sisteminin sonrakı mərhələlərdə özünü büruzə verməsi də subyektiv meyillərin deyil, varisliyin nəticəsidir. Varislik təlimin inkişafetdiricilik mahiyyətini tamamlayır;

3. Varislik özünü tədris proqramlarının məzmununda da göstərir. Proqram materiallarının həcmi, şagirdlərin yaş səviyyəsi, dərketmə imkanları da varisliyə əsaslanır. Ənənəvi proqramlardakı təkrarlayıcı dərslər öz yerini kurikulumun məzmununa uyğun olaraq tələbatyönümlülüyə, standartlaşdırılmış konkret bacarıqların aşılanmasına verir;

4. Varislik yalnız təlimin məzmununda deyil, məzmun xətləri üzrə (ədəbiyyat və həyat həqiqətləri, şifahi nitq, yazılı nitq) işlərdə də özünü göstərir və bədii nümunələrin bu vəhdətdə, inteqrasiyada mənimsədilməsi şagirdlərin dünyagörüşünün, intellektinin, şifahi və yazılı nitq qabiliyyətlərinin formalaşmasına xidmət edir;

5. Ədəbiyyat fənninin əsasını təşkil edən proqram, dərslik, metodiki vəsaitlərin hazırlanması və təhsil islahatındakı müsbət cəhətlər birbaşa varisliklə bağlıdır. Ədəbi material bir idrak məhsulu, bir yaradıcı təfəkkür nümunəsidir və onu yalnız yaddaşa güvənməklə, əzbərləməklə öyrənmək azdır. Ədəbi nümunə, onun məzmunu, bədii konflikt və münasibətlər, onun nəzəri tərəfləri əməkdaşlıq şəraitində daha dayanıqlı, əsaslı mənimsənilir.

6. Fənn kurikulumu əsasında hazırlanmış dərsliklərdə əvvəlki proqramlarda olmuş ədəbi nümunələr yer tutsa da, mənimsəmədə yeni yanaşmalar, texnologiyalar, təlim üsulları tətbiq olunmaqdadır. Müasir şagirdi müəllimin bəlağətli nitqindən, pafoslu monoloqundan çox, analitik suallar, müstəqil tədqiqatlar, azad psixoloji mühit maraqlandırır. Müxtəlif ideoloji sistemlərin nümayəndəsi olan yazarlara müəllimin, təhlilçinin məhrəm münasibəti, vərəsəyə dialektik münasibət dərsin düzgün qurulmasını təmin edir. Keçmiş ədəbi irsə düzgün münasibət şagirdlərdə tariximizə, klassik ədəbiyyatımıza rəğbət hissi formalaşdırır;

7. Dərs mərhələlərinin düzgün təşkili, təlim prosesində vaxt bölgüsünün diqqətlə aparılması dərsin keyfiyyətinə təsir edən əsas amillərdəndir. İcmal mövzularının, ədəbi nümunələrin, ədəbiyyat nəzəriyyəsi materiallarının tədrisində, yaradıcı yazıların aparılmasında vaxtdan düzgün istifadə edilmədikdə bir çox sualların cavabı alınmamış qalır. Bu günkü təlimdə başlıca məqsəd çoxlu həcmdə bilik vermək yox, təlimi problemi müstəqil həll edə bilmək bacarığı formalaşdırmaqdır. Varislik yalnız dərsin məzmununun, mahiyyətinin çatdırılmasında deyil, onun pedaqoji-psixoloji tərəflərində də özünü göstərməlidir.

8. Tədqiqat müşahidələri göstərir ki, ibtidai və V-VII siniflərdə əməkdaşlıq şəraiti yaradıb, qruplarla işləmək daha asandır. Yuxarı siniflərdə şagirdlər bu psixoloji mühitə, əməkdaşlıq şəraitinə tam hazır deyillər. Görünür, bu daha çox bu cür işləmə vərdişlərinin olmaması ilə və şagirdlərin özünün psixolji durumu ilə əlaqəlidir. Bizcə, psixoloq və metodistlər, fənn müəllimləri bu məsələnin müsbət çözümündə xüsusi fəallıq nümayiş etdirməli, bu mərhələdə qruplara işin effektli alınmasının metodiki yollarını axtarmalıdırlar;

9. Eksperimentlər göstərdi ki, yeni metodlar müəllim-şagird, şagird-şagird əməkdaşlığına yol açan, psixoloji dəstəyi, etibarı, özünəinamı təmin edən, fəallaşdırıcı enerjiyə malik, qavrama və mənimsəməni təmin edən, bacarıqları formalaşdıran metodlardır. Bizcə, mənimsəmədə yeni təlim texnologiyalarından istifadənin özəlliyi həm də onların demokratik xarakterdə olmasındadır. Demokratik mühit olan yerdə isə metodların



təkmilləşdirilməsinə, yeni təlim vəsaitlərinin hazırlanmasına həmişə ehtiyac var;

10. Müşahidələr onu da göstərdi ki, müəllimlər həm Azərbaycan dili, həm də ədəbiyyat dərslərində yaradıcı yazılara, rabitəli nitq inkişafını təmin edən nümunələrə dair işlərin aparılmasına (esse, imla, ifadə, inşa), onların təshihinə ciddi yanaşmır və yaradıcı yazıların aparılması prosesi zəifdir. Bu işə diqqət artırılmalıdır;

11. Müasir təlimin demokratik xarakterdə olması müsbət cəhət olsa da, müəllim məsuliyyətinin artırılması ilə bağlı işlər gücləndirilməli, müəllimin peşə hazırlığına, davranış normalarına diqqət artırılmalıdır. Kurslar, monitorinqlər vasitəsi ilə təlimi nəticələr təhlil edilərək təkmilləşdirilməli, müəllimlər informasiya axınından geri qalmamalıdır.

Tədqiqatın nəticələri aşağıdakı **təklif**ləri irəli sürməyə əsas verir

1. V-XI sinif fənn kurikulumları, bədii nümunələr ibtidai təhsil mərhələsində və ayrı-ayrı siniflərdə qazanılmış bilik, bacarıq və vərdişlər sistemi nəzərə alınmaqla hazırlansın.
2. Dərslik, metodiki vəsait və planlaşdırma materiallarındakı bəzi uyğunsuzluqlar aradan qaldırılsın.
3. Yuxarı siniflərdə klassik ədəbiyyat nümunələrinin tədrisini asanlaşdıran təkmilləşdirilmiş metodlardan (mühazirə, müəllimin sözü, monoqrafiyalarla iş) istifadəyə imkanlar yaradılsın.
4. Konkret ədəbi nümunələr, sərbəst mövzular üzrə yaradıcı yazıların aparılması, təshihi sistemi nəzarətdə saxlanılsın, şagirdlərin yazılı nitq vərdişlərinin, yazı intellektinin gücləndirilməsi üçün imkanlar səfərbər edilsin.
5. Bədii əsərlərin təhlili, dil və üslub xüsusiyyətləri üzrə işin təşkili dərsliklərlə kifayətlənilməsin, iş dəftəri, test-tapşırıqlar üzrə fəaliyyət diqqətdən kənarda qalmasın.
6. Yeni təlim metod və üsullarından, informasiya-kommunikasiya texnologiyalarından (İKT), internet şəbəkədən istifadə yalnız açıq dərslərlə yekunlaşmasın, müəllimlərin treninqlərə, kurslara cəlb edilməsinin vahid, işlək sistemi yaradılsın.

Dissertasiyanın əsas məzmunu çap edilmiş aşağıdakı məqalə və tezislərdə öz əksini tapmışdır:

1. Varisliyin ümdə şərti: ənənə və novatorluq// Azərbaycan dili və ədəbiyyatı tədrisi jurnal, 2009, № 4, səh.71-75

2. Türk və xarici ölkə ədəbiyyatı materiallarının tədrisində varislik // Azərbaycan Beynəlxalq Universiteti, Xəbərlər, 2009, №4 (09), səh.88-93

3. Milli və dünya ədəbiyyatı nümunələrinin əlaqəli tədrisi // Azərbaycan dili və ədəbiyyat tədrisi, 2010, №1, səh.47-50.

4. Преемственность в преподавание тюркских литературных материалов и материалов литературы зарубежных стран // Казахский Национальный Университет имени АЛЬ ФАРАБИ, ХАБАРШЫ, АЛМАТЫ, 2010, № 2-3 (39-31), с.101-105.

5. Təlimdə varislik. Tarixilik və perspektivlilik // Azərbaycan dili və ədəbiyyat tədrisi, 2010, № 3, səh. 45-47

6. Milli kimliyimizin böyük abidəsi "Kitabi-Dədə Qorqud" orta məktəb ədəbiyyat təlimində // "Kitabi-Dədə Qorqud"un alman dilində ilk tərcüməsi və nəşrinin 200 illik yubileyinə həsr olunmuş "Türk epos düşüncəsi yazılı abidələrdə" mövzusunda keçirilən konfrans. Bakı, 2015, s. 157-163



**А.Г.Балыев**

**Преемственность как одна из важных принципов учения литературы (в V-XI классах общеобразовательных школ)**

**Резюме**

Во введении диссертации, состоящей из двух глав и восьми подглав, обосновывается актуальность темы. Отмечается, что одна из актуальных проблем современного мира преемственность не является какой-либо математической задачей, которую можно решить за раз потенциалом знаний. Эта «вечная» проблема является основным дидактическим принципом, формирующим систему знаний, умений и привычек, выступающих в качестве основного атрибута интеллектуальной цельности.

В I главе диссертации исследуются сущность, философия, педагогические стороны преемственности. Анализируются мысли и соображения философов, педагогов и литературоведов, живущих с античного периода по настоящий день. Указывается, что преемственность вошла в методическую литературу из философской концепции педагогического процесса. В диссертации указываются мысли Аристотеля, И.Канта и других философов и доводят до сведения, что итоговая философская концепция о преемственности принадлежит классическому немецкому философу Гегелю. Философия по отношению к исторической преемственности принимает его диалектический подход.

В других подглавах I главы указывается поставка проблемы перед методической литературой, освещается роль преемственности в составлении программ и учебников.

Во II главе диссертации анализируются материалы автобиографий, фольклорные образцы, эпические, лирические, драматические произведения и теоретические элементы литературы и исследуются роль преемственности в их освоении, возможности воздействия на качество обучения. В изучении отдельных художественных текстов создается система использования новой технологии обучения. Подытоживаются эксперименты, поставленные в годы проведения исследования, его результаты и выдвигаются соответствующие предложения. В конце предоставляется список использованной литературы.

**A.H. Baliyev**

**Inheritance as one of the major principles of teaching literature**

**( on V-XI forms of general education )**

**S u m m a r y**

The actuality of the theme is supported in the introduction of the dissertation work consisting of 2 chapters and 8 subchapters. Here it is noted that, being one of the most actual problems of the world is impossible to be solved forever as if it were maths problems by means of knowledge capacity (or cannot be taken up as a maths problem and solved by means of knowledge capacity once forever). This “literary” problem is the major didactic principle forming the system of knowledge and skills and serving as a main symbol of intellectual completeness.

The I chapter of the dissertation investigates the essence of heredity and its philosophical and pedagogical aspects. Thoughts and news of philosophers, educationists and literary men beginning from ancient times up today are analyzed here and it is mentioned that inheritance came into methodical literature through the philosophical concept of pedagogical process. Aristotel’s, I. Kants and other philosophers thoughts were touched upon and special emphasis was made to Hegel’s role in forming substantial philosophical concept of inheritance. In relation to historical inheritance. Philosophy accepts its didactic approach.

In other parts of the I chapter the statement of the problem in methodical literature and its role in compiling programs and textbooks in thrown light (illuminated). Texts for primary schools on “Azerbaijani language” are investigated as an initial reference source.

The II chapter is dedicated to the analysis of autobiographical documents, folklore examples, different epic, lyric and dramatic works and to the study of the role of inherit their learning and influence to the quality of education. Here, the system of the usage of new teaching technologies in teaching different types of texts is formed. The results of the experiments held during the years of research are summed up by proper obvers in the conclusion of the thesis.





**МИНИСТЕРСТВО ОБРАЗОВАНИЯ АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКИ**

**АЗЕРБАЙДЖАНСКИЙ ГОСУДАРСТВЕННЫЙ ПЕДАГОГИЧЕСКИЙ УНИВЕРСИТЕТ**


*На правах рукописи*

**БАЛЫЕВ АДИЛЬ ГАСАН ОГЛЫ**

# ПРЕЕМСТВЕННОСТЬ КАК ОДНА ИЗ ВАЖНЫХ ПРИНЦИПОВ УЧЕНИЯ ЛИТЕРАТУРЫ (В V-XI КЛАССАХ ОБЩЕОБРАЗОВАТЕЛЬНЫХ ШКОЛ)

5801.01 - Теория и методика обучения и воспитания
(методика преподавания литературы)

## А В Т О Р Е Ф Е Р А Т

диссертации на соискание ученой степени ддоктора философии по педагогике

**Баку - 2017**